AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

MOLLA CÜMƏ ƏSƏRLƏRİNİN ƏLYAZMA NÜSXƏLƏRİNİN MÜQAYİSƏLİ – TEKSTOLOJİ TƏDQİQİ

İxtisas: 5721.01 – Mətnşünaslıq, mənəvi-mədəni irsə dair qədim əlyazmaların işlənməsi (tərcüməsi, tədqiqi və nəşrə hazırlanması)

5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Novruz Kamal oğlu Bəkirov**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2024

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Multidissiplinar əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent

Paşa Əli oğlu Kərimov

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
Abuzər Musa oğlu Bağırov

filologiya elmləri doktoru, dosent
Salidə Şəmməd qızı Şərifova

filologiya üzrə fəlsəfə doktoru, dosent
Samirə Ağababa qızı Əliyeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
Rafael Baba oğlu Hüseynov

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru
İlhamə Mürsəl qızı Gültekin

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
Yaqub Məhərrəm oğlu Babayev

DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Xalqımızın milli duyum və düşüncə tərzini, saz və söz vəhdətini özündə yaşadan, klassik ənənəyə bağlı aşıq sənəti qədim tarixə, əsrlərlə cilalanıb təkmilləşən zəngin ənənəyə malikdir. Yüzilliklər keçdikcə nəsildən-nəsilə ötürülərək günümüzədək gəlib çıxan bu sənət xalqın ruhunu, zövqünü oxşayır, dövrün ictimai-siyasi ab-havasını özündə əks etdirir. Aşıq ədəbiyyatı hər zaman xalqın həyatı ilə sıx bağlı olmuş, dövr keçdikcə zənginləşmiş və kamilləşmişdir. Bu sahəni hərtərəfli öyrənmək, zəngin repertuarını araşdırmaq üçün aşıq ədəbiyyatının regional-mədəni və sosial mühitinin özünəməxsusluqlarına xüsusi diqqət yetirmək olduqca vacib məsələdir. Bu baxımdan, Azərbaycan aşıq sənətinin vacib qollarından birini təşkil edən, özünəməxsus ənənəsi, yaradıcılıq çalarları, tarixi inkişaf yolu olan Şəki aşıq mühiti də coğrafi mövqeyi, eyni zamanda, ifaçı və dinləyicilərin etnik-mədəni tərkibi baxımından böyük maraq doğurur. Bu da öz növbəsində onun ətraflı öyrənilməsinin bütövlükdə aşıq ədəbiyyatımızın araşdırılması baxımından xüsusi əhəmiyyət kəsb etməsinə səbəb olur. Belə bir mühitdə yaradıcılıqları, ideya-estetik, sənətkarlıq xüsusiyyətləri ilə bir-birindən fərqlənən ustad aşıqlar və el şairləri yetişmişdir. Bu kimi bir sıra səciyyəvi xüsusiyyətləri ilə seçilən Şəki aşıq mühitinin görkəmli nümayəndələrindən biri də Molla Cümədir. Xalqlar dostluğunun nəğməkarı, məhəbbət tərənnümçüsü kimi tanınan və sevilən söz ustasının yaradıcılığı XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərinə təsadüf edir.

Məzmun və forma baxımından zəngin irs qoyan Molla Cümə yaradıcılığının sadəcə lokal deyil, həm də regional kontekstdə öyrənilməsi sadəcə ədəbiyyatşünaslıq deyil, mətnşünaslıq nöqteyi nəzərdən də aktualdır. Çünki şifahi xalq yaradıcılığı forması olaraq aşıq şeiri əsasən dialektlərdə yazılmış və müxtəlif şəxslər tərəfindən yazıya köçürülmüşdür. Bu zaman yol verilən təhriflər bəzən şeirlərin anlam bütünlüyünü pozmuş, çoxvariantlığa gətirib çıxarmışdır. Molla Cümə şeirləri də buna bir örnəkdir. Bu baxımdan digər sənətkarlar kimi, onun da yaradıcılığının müxtəlif istiqamətlərdə təhlili və fərdi şəkildə tədqiqi bütövlükdə dövrün mədəni sisteminin

öyrənilməsi üçün zəruridir. Aşıq Molla Cümənin həyatı və əsərləri Azərbaycan ədəbiyyatı və aşıq yaradıcılığı sahəsindəki müxtəlif tədqiqat işlərində yer almışdır. Bunlardan Salman Mümtazın "El şairləri", Hümmət Əlizadənin "Aşıqlar", Həmid Araslının "Aşıq yaradıcılığı", Paşa Əfəndiyevin "Molla Cümə. Əsərləri", Mövlud Yarəhmədovun "Molla Cümə. Seçilmiş əsərləri", Məhərrəm Qasımlının "İsmi Pünhan", Əhliman Axundovun "Telli saz" kitablarını, eyni zamanda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda çap olunan "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" külliyatının 9-cu cildini göstərə bilərik.[1]

Bunlar şairin əsərlərinin nəşrinə və elmi tədqiqinə həsr olunmuş dəyərli mənbələr olsalar da, onun tədqiqatdan kənarda qalan bir sıra əsərləri də mövcuddur. Xüsusən araşdırma müddətində ortaya çıxardığımız bir neçə əlyazmada yer alan, daha öncə dərc olunmamış əsərlərin xüsusi təhlilə ehtiyacı vardır. Şairin eyni şeirlərinin müxtəlif variantlarının mövcudluğu isə onların tekstoloji tədqiqini şərtləndirən amillərdəndir. Belə ki, şairin bir çox əlyazma nüsxələri mətnşünaslıq baxımından araşdırmadan kənarda qalmış, çox sayda şeirlər natamam vəziyyətdə təqdim olunmuş, səhv yazıya köçürmələr və oxunmalar səbəbindən təhriflərə yol verilmişdir. Qeyd edək ki, Molla Cümə əsərlərinin əldə olunan son əlyazmalarında dörd tam həcmli və ındıyidik naməlum olan bir natamam dastanı və çox sayda qeyri-mətbu şeirləri aşkarlanmışdır. Bunlar şairin əsərlərinin yenidən nəzərdən keçirilməsini, onların tekstoloji və filoloji müqayisələrdə araşdırılmasını aktuallaşdırır.

---

[1] El şairləri [2 cilddə]/ topl. S.Mümtaz, - Bakı: Azərnəşr. - c.1. -1935. – 368 s.; Aşıqlar / topl. H. Əlizadə. - Bakı: Azərnəşr, c.1, -1937. – 518 s.; Araslı, H. Aşıq yaradıcılığı / H.Araslı. -Bakı: Birləşmiş nəşriyyat, -1960. – 135 s.; Əfəndiyev, P. Molla Cümə. Əsərləri / P.Əfəndiyev. -Bakı: Şərq-Qərb, - 2006. -648 s.; Molla Cümə. Seçilmiş əsərləri / tərt. ed. M.Yarəhmədov, -Bakı: Örnək, c.1, -2000. - 227s.; Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid: [12 cilddə] /AMEA, Hüseyn Cavidin Ev Muzeyi; layihənin müəl.və tərt. G. Babaxanlı ; fars dil. olan mətn. tərc. və red. T. Kərimli,- c. 9, - 2011. 286 s.; Molla Cümə. İsmi Pünhan / tərt.ed. M.Qasımlı, E.Əzizov. - Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, -2016. -227 s.

Tədqiqatın obyekti və predmeti. Dissertasiya işinin obyektini Molla Cümə əsərlərinin ərəb və gürcü əlifbası ilə olan əlyazma nüsxələri, eyni zamanda nəşr olunmuş şeir və dastanları təşkil edir.

Tədqiqatın predmetini isə Molla Cümə əsərlərinin müqayisəli-tekstoloji tədqiqi, mətbu və qeyri mətbu əsərlərinin toplanaraq yeni əldə edilmiş əlyazmalarla müqayisəli təhlil edilməsi və ədəbi irsinin tam olaraq ortaya çıxarılması təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqat işində əsas məqsəd Molla Cümə əsərlərinin əldə olan əlyazma nüsxələrinin müqayisəli-tekstoloji tədqiqini aparmaqla onun yaradıcılığını mümkün qədər bir bütün halda təqdim etmək, əsərlərindəki çoxvarianlıqdan doğan mətn xətalarını aradan qaldırmaq, əsərlərinin yeni nəşrlərinin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

Dissertasiyada qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– Molla Cümə yaradıcılığının tədqiq tarixinin araşdırılması, şairin həyatının, ictimai-siyasi fəaliyyətinin təhlil edilməsi;

– Molla Cümə yaradıcılığının gürcü aşıq məktəbinin inkişafındakı rolunun göstərilməsi;

– Şairin əsərlərinin ərəb əlifbası ilə köçürülmüş əlyazma nüsxələrinin müqayisəli-tekstoloji tədqiqi, onların paleoqrafik təsvirinin verilməsi və qrafik-orfoqrafik xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– Molla Cümənin gürcü əlifbası ilə köçürülmüş əsərlərinin qrafik-orfoqrafik xüsusiyyətlərinin müəyyən edilməsi və paleoqrafik xüsusiyyətlərinin təhlil edilməsi;

– Gürcü və ərəb əlifbası ilə köçürülmüş əlyazma əsərlərinin müqayisəli təhlil edilməsi.

Tədqiqatın metodları.

Tədqiqat işində müqayisə metodundan istifadə edərək təhlillər aparılmışdır. Əldə edilən nəticələr analiz olunmuş və paralellər aparılaraq sintez edilmişdir.

Elmi iş yazılarkən tarixilik, problemə kompleks yanaşma, fakt və materialların toplanaraq sistemləşdirilməsi, materialların ümumiləşdirilməsi prinsipi əsas götürülmüşdür.

Müdafiəyə çıxarılan əsas müddəalar.

–Molla Cümənin ədəbi irsi tədqiq edilərkən onun əsərlərinin ərəb və gürcü əlifbaları ilə köçürülmüş nüsxələri müqayisəli-tekstoloji baxımdan nəzərdən keçirilmişdir. İndiyədək şairin ədəbi irsi bu istiqamətdə araşdırılmayıb;

–Molla Cümənin ədəbi irsini nəşrə hazırlayanlar şairin əsərlərinin bütün əlyazmalarını hərtərəfli araşdırmadıqlarından onun bir sıra əsərləri tədqiqatdan kənarda qalmış, natamam təqdim edilmiş, bəziləri isə səhv oxunmuşdur;

–Əsərlərin gürcü əlifbasıyla köçürülmüş əlyazmaları şairin Azərbaycan-gürcü ədəbi əlaqələrinin inkişafındakı rolunu öyrənmək baxımından böyük maraq kəsb edir;

–Molla Cümənin son zamanlar üzə çıxarılaraq nəşr edilmiş dastanları şairin yaradıcılığının mühüm hissəsini təşkil edir. Şairin ədəbi irsi ətraflı araşdırılarkən bu əsərlər mütləq nəzərə alınmalıdır.

Tədqiqatın elmi yeniliyi. Əksər aşıqlarımızın yaradıcılığı şifahi şəkildə dildən-dilə keçmiş, müəyyən dəyişikliklərə uğrayaraq günümüzə gəlib çatmışdır. Bu baxımdan Molla Cümə ədəbi irsi, ehtimal edildilir ki, özü tərəfindən əlyazmalara köçürülmüş ilk klasik aşıq, şairlərimizdəndir. Elmi işdə Molla Cümə əsərlərinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan əlyazma nüsxəsi ilə bərabər, əldə edilən yeni nüsxələr, eləcə də şairin nəşr olunmuş əsərləri bir bütün olaraq araşdırmaya cəlb edilərək, ilk dəfə müqayisəli-tekstoloji tədqiqat aparılmışdır. Dissertasiya işində aşıqın həmyerlilərindən əldə edilmiş, indiyədək nəşr olunmamış dastanlar da təhlil edilmişdir ki, bu da şairin ədəbi irsinin daha hərtərəfli tədqiqinə yardım edir.

Tədqiqat işində eyni zamanda, ilk dəfə olaraq Molla Cümənin gürcü əlifbası ilə qələmə alınmış şeirləri araşdırmaya cəlb edilmişdir. Qeyd edək ki, onun şeirlərinin gürcü aşıqarı tərəfindən öz əlifbaları ilə köçürülərək repertuarlarında istifadə edilməsi, şairin yaradıcılığının Azərbaycanın bütün şimal-qərb bölgəsi ilə yanaşı, gürcülər arasında da geniş yayıldığını göstərməkdədir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Dissertasiya işinin elmi nəticələri və yeniliklərindən ali məktəblərdə tədris olunan Azərbaycan ədəbiyyatı, aşıq poeziyası və mətnşünaslıqla bağlı

mühazirələrdə faydalanmaq olar. Eyni zamanda, filologiya fakültələrində xüsusi kurs keçirilərkən bu tədqiqatdan elmi vəsait kimi yararlanmaq mümkündür. Elmi işin mətnşünaslığa aid hissəsi tekstologiya sahəsində araşdırmalar aparmaq fikrində olan tədqiqatçıların işinə yardımçı ola bilər.

Dissertasiya işinin aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas elmi məzmunu müəllifin mövzuya dair müxtəlif elmi konfranslarda etdiyi məruzələrində, respublika və xarici ölkələrin elmi jurnallarında çap edilmiş məqalələrində, nəşr edilən monoqrafiyasında əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilat. Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun "Multidissiplinar əlyamaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

Dissertasiya işinin quruluşu və ümumi həcmi. Dissertsiya işi Azərbaycan Respublikasının Prezident yanında Ali Attestasiya Komisiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

Dissertasiya işi giriş (10 065 şərti işarə), hər biri iki paraqrafa bölünən 3 fəsil (I fəsil – 77 317, II fəsil – 54 540, III fəsil – 52 160 işarə sayı), nəticə (10 798 işarə sayı), istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

İşinin ümumi həcmi 204 880 şərti işarədir.

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiyanın birinci fəsli **"Molla Cümənin mühiti, həyatı və yaradıcılığı"** adlanır və 2 paraqrafdan ibarətdir.

Birinci fəslin birinci paraqrafı **"Molla Cümənin yetişdiyi ədəbi-mədəni mühit və həyatı"** adlanır. Bu paraqrafda şairin yaşadığı Şəki şəhəri və ona qonşu bölgələrin ədəbi mühitinin onun

bir aşıq kimi yetişməsindəki təsiri araşdırılır. Qeyd edək ki, Şəki aşıqlarının yaradıcılığında və ifa tərzində Şirvan aşıq mühiti ilə sənət əlaqələrinin təsiri özünü göstərmişdir.

Aşıq sənəti xalq yaradıcılığı, folklorla birbaşa bağlıdır. *"Hər bir xalqın mədəniyyətinin, etnik-mədəni dünyasının, mənəviyyatının qaynağı, təməl nöqtəsi onun folklorudur"*[2]. Folklorşünas alim Hüseyn İsmayılov yazır ki, *"folklorun yaradıcısı xalqdır. Xalq öz söz incilərini yaradır, cilalaya-cilalaya, dəyişə-dəyişə, nəsildən-nəslə ötürərək tarixini yaşadır"*[3]. Şəki folklor mühiti də həmişə özünəməxsusluğu ilə seçilmişdir.

Şəki aşıq mühitinin yetişdirmələrindən biri də yaradıcılığı, sənəti ilə xalqlar dostluğunun nəğməkarı, məhəbbət tərənnümçüsü kimi tanınan və sevilən el aşığı, qüdrətli söz ustası Molla Cümədir (1859-1920). Həyatı əsasən doğulub boya-başa çatdığı Şəki rayonu Göynük mahalında keçən aşıqın əsli ziyalı təbəqədən olmuşdur. Şairin babası Molla Oruc da saza, sözə meyilli birisi olmuş və Molla Cümənin aşıq kimi formalaşmasında rol oynamışdır. Qeyd edək ki, onun yaradıcılığına müasirləri Aşıq Alı, Aşıq Ələsgər, Şəmkirli Aşıq Hüseyn və başqalarının da təsiri az olmamışdır.

Molla Cümənin ədəbi irsi haqlı olaraq Azərbaycan aşıq poeziyasının incilərindən sayılır. O, əksər poetik janrlarda mükəmməl əsərlər yaratmış, əsərlərinin bir çoxunu şəxsən yazıya almışdır. Molla Cümə "İsmi Pünhan"ı şeirlərinin qəhrəmanına çevirərək onun simasında bədii obraz yaratmış, bu obrazı butasına çevirmişdir.

Tədqiqatçı alim Mövlud Yarəhmədov şairin yaradıcılığını tədqiq edərkən qeyd etmişdir ki, *"şeirləri Cənubi Qafqazın və Dağıstanın qeyri-türk aşıqları tərəfindən böyük həvəslə ifa edilən Molla Cümənin bölgədə dilimizin nüfuzunun artmasında, dostluğun möhkəmləndirilməsində özünəməxsus rolu olmuşdur"*.[4]

Dövrünün istedadlı, qüdrətli sənətkarı olan Molla Cümənin əsərləri mövzu dairəsinin genişliyi, janr əlvanlığı, ürəklərə yol tapan

---

[2] Xəlilov, N. Aşıq sənətinin təşəkkülü / N. Xəlilov. - Bakı: BDU, -2003. - s.27
[3] İsmayılov, T.Ə. Şəki / T.Ə.İsmayılov. -Bakı: Azərnəşr, -1982. - s.4
[4] Molla Cümə. Seçilmiş əsərləri / tərt.: M. Yarəhmədov, - Bakı: Örnək, - c.1. - 2000. – s. 5.

incə lirizmi, dünyəvi məhəbbəti, əsərlərində vətənpərvərlik ideyalarını tərənnüm etməsi, həyatda gördüklərini realistcəsinə əks etdirməsi ilə diqqəti cəlb edir. Bütün bu xüsusiyyətlər onu xalqın sevimlisi etmişdir. İndiyədək də əhalidə saxlanan əsərlərinin aşkar edilməsi şairin ədəbi irsinin, ədəbi nüfuzunun geniş yayılmasının əyani sübutudur.

Ərtoğrol Cavid Molla Cümənin Nuxa rayonu Layisqi kəndində doğulduğunu, ata adının Saleh, babasının isə Molla Oruc olduğunu yazır. O, özü "Aşıqlıq" zəncirləməsində yazır:

Binəm Layisqiyə düşübdür mehman,
Pədərim Salehdır, madərim Reyhan,
Vələdim Həsəndir, adım Süleyman,
Familim Molla Oruc, ədnasıyam mən[5].

Bu şeirə əsaslanaraq H.Əlizadə şairin əsl adının "Süleyman", təxəllüsünün isə "Molla Cümə" olduğunu yazmışdır. Lakin, M.Yarəhmədov tərtib etdiyi Molla Cümə əsərlərinin ön sözündə qeyd edir ki, ərəb əlifbasında şair "adım" yox, "əxim" yazmışdır. Yəni, əslində şair burada "qardaşım" demək istəmişdir[6].

Şarin doğum yeri və ölüm tarixi ilə bağlı ziddiyyəti fikirlər demək olar ki, yoxdur. Lakin doğum tarixi müxtəlif tədqiqatçılar tərəfindən fərqli verilir. Məsələn, Əhliman Axundov[7] şairin doğum ilini 1853, Mövlud Yarəhmədov[8], Paşa Əfəndiyev[9], Məhərrəm Qasımlı və Elman Əzizov[10] 1854, Feyzulla Qasımzadə[11] 1855,

---

[5] Aşıqlar / topl. H. Əlizadə. – Bakı: Azərnəşr, – c.1, – 1935. – s. 158.
[6] Molla Cümə. Seçilmiş əsərləri/ tərt. ed. M.Yarəhmədov. –Bakı: Örnək, –2000. – s.4.
[7] Aşıq Ələsgər. Əsərləri / tərt.ed. Ə.Axundov, M.Təhmasib. – Bakı: Az.EA, – 1963. – s. 90.
[8] Molla Cümə. Seçilmiş əsərləri/ tərt.ed. M.Yarəhmədov. –Bakı: Örnək, –2000. – s. 4
[9] Molla Cümə. Seçilmiş əsərləri / tərt.ed. P.Əfəndiyev, Ş.İdrisov. – Bakı: Yazıçı, – 1983. – s.5
[10] Molla Cümə. İsmi Pünhan / tərt.ed.M.Qasımlı, E.Əzizov. – Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, – 2016. – s. 6
[11] Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi: ali məktəblər üçün dərslik / F.Qasımzadə. - Bakı: Elm və təhsil, – 1974. – s. 379

Ərtoğrol Cavid[12] 1860-cı il kimi göstərmişdir. Ancaq, kameral təsvirləri[13] araşdırdığımız zaman Çar Rusiyası dövründə aparılan siyahıyaalma sənələrinə əsasən şairin doğum tarixinin 1859-cu il olaraq göstərildiyinin şahidi oluruq. Qeyd edək ki, XIX əsrdə kameral təsvirlərin tərtib edilməsində əsas məqsəd vergi mükəlləfiyyətli əhalinin və vergidən azad edilmiş şəxslərin siyahıya alınması olsa da bu günkü araşdırmalarda bəzi tarixlərin dəqiqləşdirilməsində böyük rol oynayır.

Şairin həyatı ilə bağlı araşdırmalarda mübahisəli olan məsələlərdən biri də onun adı ilə bağlıdır. Belə ki, müəlliflərdən bəziləri onun adını "Cuma" (Ə.Cavid, A.Axundov, M.Yarəhmədov, Q.Namazov və b.) , bəziləri isə "Cümə" (S.Mümtaz, P.Əfəndiyev, Ş.Məmmədli, M.Qasımlı və b.) kimi verirlər. Yenə də eyni kameral siyahılarda şairin adı "Джума" kimi yazıldığına görə, təbii olaraq, onu hər iki variantda oxumaq mümkündür. Lakin biz ikinci qrup müəlliflərlə razılaşır və aşıqın adının "Cümə" kimi verilməsinin daha doğru olacağını düşünürük.

Molla Cümənin uşaqlığı Layisqi kəndində keçmişdir. O, mədrəsədə oxumuş, ərəb və fars dillərinə yiyələnmişdir. Atasının vəfatından sonra Qax rayonunun İlisu kəndinə köçən Cümə burada Molla Məhəmmədin şagirdi olmuşdur. Mollanın *"aşıqlar, şairlər cəhənnəmdə qətran qazanında yanacaqlar, çalıb oxusan gözlərin kor olacaqdır"*[14] sözlərinə cavab olaraq həcv yazan Molla Cümənin məhz bundan sonra aşıqlığa başladığı düşünülür:

Məndən salam olsun, Molla Məhəmməd,
Yeni aşıq olmuşam, saz göndər mənə.
Özüm söz deməyə hələ acizəm,

---

[12] Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid: [12 cilddə] / - Bakı: AMEA, Hüseyn Cavidin Ev Muzeyi ; layihənin müəl.və tərt. G. Babaxanlı; fars dil. olan mətn. tərc. və red. T. Kərimli, - c. 9, - 2011. s.19

[13] Посемейный список Лаискинского сельского Общества Селения Ашага-Лаиски Нухинского уезда Елизаветпольский губернии (составлено: 1863, 1873, 1886 г.) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond 43, siyahı №2, iş nömrə 7385.

[14] Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid: [12 cilddə] /- Bakı: AMEA Hüseyn Cavidin Ev Muzeyi, - c. 9, - 2011. - s.19

Bir qədər nəzm eylə, söz göndər mənə...[15]

Mədrəsədə oxuduğuna və savadlı olduğuna görə el arasında "molla" deyə müraciət olunan Cümə gənclik illərindən öz fitri istedadı ilə seçilmiş, regionda və Azərbaycandan uzaqlarda belə şöhrət qazanmışdır. M.Yarəhmədov şairin həyat və yaradıcılığı ilə bağlı tədqiqatında qeyd etmişdir ki, *"...uşaqlıq illərini Layisqi kəndində keçirən Cümə oxumaq üçün Zaqatala rayonunun Marsan kəndinə gedir. O, burada Hacı İbrahim əfəndinin hücrəsinə gedir. Mürşüdü İbrahim əfəndinin qızı, şairin şeirlərində böyük məhəbbət və sonsuz ehtiramla "İsmi Pünhan" adlandırdığı lirik qəhrəmanı arasında məhəbbət macərası başlanır. Bu barədə şair deyir:*

Mən onu görməkliyim, ol xudanın hikmətidir,
Eşqinə vermək könül, şirin canın zəhmətidir"[16].

Molla Cümənin bu sevgisi uzun sürməmişdir. Belə ki, bundan xəbər tutan İbrahim əfəndi tərəfindən hücrədən uzaqlaşdırılan Cümə Aşağı Göynük kəndinə gələrək öncə Əbdürrəhman əfəndinin hücrəsində, daha sonra isə Hacı Həmidin mədrəsəsində oxuyur. Bundan sonra Cümə Zaqatalanın Varxiyan (indiki Bəhmədli) kəndinə gedir və burada Aşıq Məmmədin tələbəsi olur[17].

Göründüyü kimi, Molla Cümənin bir neçə ustadı olmuşdur ki, bunun da Molla Cümənin təcrübəli bir aşıq kmi formalaşmasında böyük rolu olmuşdur.

Molla Cümə vətənpərvər şair olmuş, yadellilərin Şəki torpaqlarında məskunlaşmasına qarşı çıxmışdır. Bu baxımdan bir sıra tədqiqatçılar haqlı olaraq onu "istiqlal şairi" adlandırırlar.[18]

---

[15] Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid: [12 cilddə] /- Bakı: AMEA Hüseyn Cavidin Ev Muzeyi, - c. 9, - 2011. - s. 19

[16] Molla Cümə. Seçilmiş əsərləri / tərt. ed. M.Yarəhmədov. - Bakı: Örnək, - 2000. - s.11.

[17] Bəkirov, N. Molla Cümə yaradıcılığının Azərbaycanın şimal-qərb və gürcü aşıq məktəbinin inkişafında rolu // - Bakı: Əlyazmalar yanmır. - 2019. №2 (9), - s. 228

[18] Molla Cümə. Əsərləri (əlyazma) / AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Saxlama vahidləri: D1020/1; D1020/2; D1020/3; D1020/4; Molla Cümə. Şeirləri (gürcü əlifbası ilə / AMEA-nın Əlyazmalar İnstitutu. FR/1648 şifrli nüsxə, 12 v.

Molla Cümə 1920-ci ildə erməni daşnakları tərəfindən qəddarcasına qətlə yetirilmiş, həyat yoldaşı Zöhrə xanım da bu zaman evində güllələnmişdir. Həmin vaxt ailədən yalnız onların 14 yaşlı qızı Reyhan qonşuların köməyi ilə baba yurduna, yəni Şəki rayonu Baş Layisqi kəndinə qaçırıldığı üçün sağ qala bilmişdir.[19]

Birinci fəslin ikinci paraqrafı "**Molla Cümə yaradıcılığının tədqiq tarixi. Şairin ədəbi irsi**" adlanır.

Folklorşünas Hümmət Əlizadə Aşıq Cümə yaradıcılığının ilk tədqiqatçılarından biri olmuşdur. O, 1929-cu ildə görkəmli sənətkarın Xəyyat Mirzə ilə deyişməsini, qoşayarpaq müxəmməsini "Aşıqlar"[20] kitabının 1-ci cildində nəşr etdirmişdir. Tədqiqatçı Salman Mümtaz da ilk dəfə Molla Cümənin Qax rayonunda yaşadığı barədə məlumat vermiş və onun "Sərçələr" şeirini "El şairləri" toplusunun I cildində nəşr etdirimişdir[21].

12 cildlik "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid"[22] külliyyatının IX cildində Molla Cümənin əsərləri toplanmış, bu əsərlərə Ə.Cavidin yazdığı elmi rəylər yer almışdır.

Molla Cümənin tədqiqatçılarından filologiya elmləri doktoru professor Paşa Əfəndiyev 1966, 1983, 1995, 2006-cı illərdə şairin əsərlərini nəşr etdirmişdir. Tədqiqatçının tərtibçisi olduğu, 2006-cı ildə çap edilmiş "Molla Cümə. Əsərləri" kitabı hesab edirik ki, bu günə kimi Molla Cümənin nəşr edilmiş əsərlərləri arasında ən mükəmməlidir. Bu nəticəyə gəlməmizə səbəb həm şairin əsərlərinin müxtəlif nəşrlərini qarşılaşdırdığımız zaman məhz P.Əfəndiyevin tərtibatçısı olduğu kitabdakı şeirlərin, fikrimizcə istər məzmun, istərsə də qafiyə baxımından orjinala daha yaxın olduğunu düşünməmiz, həm də kitabın həcm baxımından daha geniş olmasıdır. Kitabın ön sözündə tədqiqatçı Molla Cümənin həyatı, yaradıcılığı və əsərlərinin tədqiqi tarixinə münasibət bildirmiş, bu sahədə axtarışları, tapıntıları barədə

---

[19] Əfəndiyev, P. Molla Cümə. Əsərləri / P.Əfəndiyev. - Bakı: Şərq-Qərb, - 2006. - 648 s.

[20] Əlizadə, H. Aşıqlar / H.Əlizadə. – Bakı: Azərnəşr, - 1935. – s. 155-193.

[21] El şairləri [2 cilddə] / topl. S.Mümtaz. - Bakı: Azərnəşr. - c.1. -1935. – 368 s.

[22]Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid: [12 cilddə] /- Bakı: AMEA Hüseyn Cavidin Ev Muzeyi, - c. 9, - 2011. - s.19-250

məlumat vermişdir[23].

Molla Cümənin yaradıcılığını əks etdirən çoxsaylı mənbələrdən biri də "Molla Cuma. İsmi Pünhan" kitabıdır. Kitab 2016-cı ildə işıq üzü görmüşdür. Nəşrə hazırlayanlar əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı və Molla Cümənin nəticəsi Elman Əzizov olmuşlar. Kitab Azərbaycan tarixçiləri İctimai Birliyi tərəfindən nəşr edilmişdir[24].

Şairin əsərlərinin Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda B-1937/3562 şifri ilə saxlanan əlyazma nüsxəsində 473 əsər yer almışdır[25]. Qeyd edək ki, M.Yarəhmədov bu nüsxənin araşdırması ilə məşğul olsa da, vaxtsız vəfatı ilə əlaqədar tədqiqatını tamamlaya bilməmişdir. Bu baxımdan nüsxədəki 126 şeir təhlildən kənarda qalmışdır.

Fərdi ekspedisiya zamanı Qax rayonunun Ənbərçay kəndindən olan Füzuli Rəşidovdan Molla Cümənin şeirləri köçürülmüş üç on ədəd iki vərəqlik əlyazma dəftəri əldə edilmişdir. Qeyd edək ki, dəftərlərdəki şeirlərin ümumilikdə sayı 43-dür. Bunlardan on biri müxəmməs, üçü divani, biri qıfılbənd, biri deyişmə, on səkkizi qoşma, üçü gəraylı, altısı təcnisdir[26].

Ekspedisiya zamanı əldə olunan mənbələrdən biri də Aşağı Göynük – Hacı İlyas kənd sakini Osman Abdurəhmanovun təqdim etdiyi 30 şeirdən ibarət bloknotdur. Bu şeirlərdən on doqquzu müxəmməs, onu qoşma, biri deyişmədir[27].

Beləlilə, şairin nəşr olunmuş və əlyazma halında qorunan əsərlərdəki şeirlərin ümumi sayı 2889-dur ki, bunlardan da 1744-ü iki, bəzən isə daha çox mənbədə təkrarlanır. Qeyd edək ki, təkrarlanan beytlər əksərən müxtəlif dəyişikliklərlə verilir. Bu

---

[23]Molla Cümə Əsərləri / AMEA Əlyazmalar İnstitutu. (Əlyazma formasında) / Saxlama vahidi: D 1020/ 2, s. 69.

[24] Molla Cümə. İsmi Pünhan / tərt. ed. M.Qasımlı, E.Əzizov, – Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, - 2016. - 226s.

[25] Molla Cümə. Əsərləri (əlyazma) / Molla Cümə. Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. ƏYİ. B-1937/3562. - 248 s.

[26] Molla Cümə. Əsərləri (əlyazma) / AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Saxlama vahidləri: D1020/1; D1020/2; D1020/3; D1020/4.

[27] Bəkirov, N.K. Molla Cümənin yeni aşkar edilmiş şeirlər toplusu-bloknot barədə // - Bakı: Filologiya məsələləri, - 2019. №16. - s. 217-223.

fərqlərdə bəzən sadəcə hərf dəyişikliyi, bəzən sinonim sözlərlə dəyişdirilməsi, bəzən isə məna saxlanılsa da bütöv misranın dəyişikliyi gözə çarpır.

Molla Cümə XIX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri, qüdrətli ustad aşıq olmuşdur. O, aşıq şeirinə bir sıra yeni janr gətirmiş, Azərbaycanın şimal-qərbində, eləcə də qonşu Gürcüstan, Dağıstan və başqa məkanlarda ədəbiyyatımızı, poeziyamızı, dilimizi, adət-ənənələrimizi təbliğ etmişdir. Molla Cümənin əlimizə çatmış gürcü əlifbası ilə köçürülən şeirlərindən ibarət dəftər göstərir ki, şairin bu mübarizəsi uğurlu olmuşdur.

Dissertasiyanın ikinci fəsli "**Molla Cümə əsərlərinin ərəb əlifbası ilə köçürülmüş əlyazmalarının tekstoloji tədqiqi**" adlanır və 2 paraqrafdan ibarətdir. "**Molla Cümə əsərlərinin ərəb əlifbası ilə köçürülmüş əlyazmalarının paleoqrafik və qrafik-orfoqrafik xüsusiyyətləri**" adlanan birinci paraqrafında tədqiqata şairin beş əlyazma dəftəri cəlb edilmiş və hər birinin qısa paleoqrafik və qrafik-orfoqrafik xüsusiyyətləri müəyyən edilmişdir.

Bunlardan biri AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan B-1937/3562 şifrəli əlyazma dəftərdir. Dəftərin ölçüləri 28x22 sm-dir. Bu nüsxə çəhrayı rəngli karton cildə tutulmuşdur. 124 vərəqdən – 248 səhifədən ibarətdir. Dəftərdəki ərəb əlifbası ilə olan yazılar çəhrayı mürəkkəblə, eyni səliqəli xətlə yazılmışdır. Dəftərdə 491 şeir, 2 dastan yer alıb.[28]

Yeni əldə edilən iri həcmli dörd dəftərdəki şeirlər təkrar olunmur və əsərlər ardıcıl olaraq düzülmüşdür. Dəftərlərin paleoqrafik təsvirini ardıcıl olaraq təqdim edirik:

Birinci əlyazma dəftər paleoqrafik xüsusiyyətlərinə görə XIX əsrə aid edilir, karton üzlüdür, üz qabığının rəngi qəhvəyidir, ölçüləri 34x21 sm-dir. Dəftərdəki yazılar adi bənövşəyi mürəkkəblə iki sütunda ərəb əlifbası ilə yazılmışdır. Ümumilikdə 92 səhifədən ibarətdir. Səhifələr vərəqin yuxarı hissəsində ortada qeyd edilmişdir. Yazılar bütün səhifələri əhatə edir. Əvvəldə dəftərin içindəki yazılar barədə 4 sətirlik qısa məlumat verilməklə giriş edilmişdir. Giriş qeydindən sonra yazılar başlanır. Dəftərə ümumilikdə 176 şeir

[28] Molla Cümə. Əsərləri (əlyazma) / AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Əlyazmalar Fondu B-1937/3562. - 248s.

köçürülmüşdür.[29]

İkinci dəftər birinci ilə eyni formadadır. Dəftərdəki yazılar adi bənövşəyi mürəkkəblə müxtəlif saylı sütunlarda səliqəli, eyni xətlə ərəb əlifbası ilə yazılmışdır. Yazılar bütün səhifələri əhatə edir. Dəftərdə ümumilikdə, 271 şeir yer almışdır.[30]

Üçüncü dəftərdə Molla Cümənin M.Ə.Sabirin 1914-cü ildə İsa bəy Aşurbəyovun mətbəəsində çap edilmiş "Hophopnamə"sinin səhivələrinin boş yerlərində yazılmış şeirləri təhlil edilmişdir. Bir sıra səhifələrdə hətta şeirlərin yazılma tarixi də vardır (1918, 1919 və s.). Müqayisələr göstərir ki, "Hop-hopnamə"nin səhifələrinin kənarlarına köçürülən şeirlər daha dəqiq və kamildir. "Hophopnamə"nin səhifələrində boş yer qalmamış, Molla Cümənin şeirləri sanki Sabir satiralarına qaynayıb qarışmışdır. Şeirlər səliqəli xətlə ərəb əlifbası ilə kitabın kənarlarında köçürülmüşdür. Bu karton üzlü, üz qabığı sarı rəngli olan kitab XX əsrin əvvəlinə, 1914-cü ilə aiddir. Kitabın ölçüləri 22x16 sm-dir, 322 səhifədən ibarətdir. Kitabda Molla Cüməyə aid olan yazılar çəhrayı rəngli mürəkkəblə köçürülmüşdür. Ümumilikdə, burada 249 əsər vardır.[31]

Dördüncü əlyazma dəftər paleoqrafik xüsusiyyətinə görə XIX əsrə aid edilir, karton üzlüdür, üz qabığının rəngi qəhvəyidir. Dəftərin ölçüləri 21x15 sm-dir. Dəftərdəki şeirlər bənövşəyi rəngli mürəkkəblə köçürülmüşdür, 122 səhifədən ibarətdir. Dəftərin əvvəlində qeydlər yoxdur, sonunda isə, fikrimizcə Molla Cümənin imzası qeyd edilmişdir. Bu imza dəftərin şairin şəxsi əlyazması olduğuna dəlalət edir. Yazılar bütün səhifələri əhatə edir. Ərəb əlifbası ilə eyni xətlə 28 səhifədə bir sütunda, 94 səhifədə iki sütunda yazılmışdır. Təhlil zamanı dəftərdə ümumilikdə 186 əsərin yer alıdığı görülür.[32]

Son olaraq qeyd edək ki, dörd dəftərdə olan əsərlərin ümumi

---

[29] Molla Cümə. Əsərləri (əlyazma)/ AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Saxlama vahidi: D1020/1.

[30] Molla Cümə. Əsərləri (əlyazma)/ AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Saxlama vahidi: D1020/2.

[31] Molla Cümə. Əsərləri (əlyazma)/ AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Saxlama vahidi: D1020/3.

[32] Molla Cümə. Əsərləri (əlyazma)/ AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Saxlama vahidi: D1020/4.

sayı 882, bəndlərin sayı 2441, misraların sayı 13878-dir.

Molla Cümənin əldə etdiyimiz üç əlyazma dəftəri və Mirzə Ələkbər Sabirin "Hop-Hopnamə"sinin səhifələrinin boş yerlərində yazlmış şeirləri araşdırıldıqdan və təhlil edildikdən sonra, Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna təhvil verilmiş. Əlyazmalar D-1020/1-4 şifri ilə qeydiyyata alınmış və hazırda həmin institutun əlyazmalar fondunda saxlanılmaqdadır.

Tədqiqat işində Molla Cümə əsərlərinin ərəb əlifbası ilə köçürülmüş əlyazmalarının qrafik-orfoqrafik xüsusiyyətləri ayrı-ayrılıqda təhlil edilmişdir.

Belə ki, qeyd olunan əlyazmalarda saitlərin sözlərin əvvəlində, ortasında və sonunda işlənməsindən asılı olaraq eyni səsin fərqli hərflərlə yazılmasına rast gəlmək olur. Eyni xüsusiyyətlərə samit hərflərdə də rast gəlinir.

"A" saiti:

- Sözün əvvəlində qısa "a" səsini ifadə etmək üçün "ا" bəzən "məddə" ilə, bəzən isə onsuz işlənmişdir: آخیر – axir, آچوب – açub və ya اغاج – ağac, اغیز – ağız. Uzun "a" səsi isə "ع" və "ا" birləşməsi ilə ifadə olunmuşdur. aləm – عالم, عاشق – aşiq.

- Sözün ortasında hərf bəzən düşmüş, bəzən də "ا" ilə göstərilmişdir: ziyafət – ضییافت, zarafat – ظرفت, مرال – maral və s.

- Sözün sonunda bəzən "ا", bəzən isə "ه" ilə ifadə olunmuşdur: قوجا – qoca, یولونده – yolunda.

"Ə" saiti:

- sözün əvvəlində "ع" və "ا" ilə: الوان – əlvan, ال – əl, اللی – əlli, ادب – ədəb, عقل – əql, عبث – əbəs və s.

- söz ortasında bəzən "ع", "ا", "ی" və "ه" ilə, bəzən isə işarəsiz. نعره – nərə, معنا – məna, دیلبار – dilbər, حسرات – həsrət, دیرمان – dərman, فیغان – fəğan, منده ن – məndən, کوزله دیم – gözlədim; dərd – درد ; tərlan – ترلان və s.

- Sözlərin sonunda "ه" ilə. ایتمه – etmə, اولکه – ölkə, گوکلره – göglərə və s.

Digər saitlərdə də eyni fərliliklər gözə çarpır. Belə ki, "e" saiti sözün əvvəlində "ا", "ع" və "ایّ" (ایتمه,ایلر, عشق), ortasında "ی" ilə (نیچه, دیمه) və ya işarəsiz (یر, یدّی); "i" saiti sözün əvvəlində "ا", "ع"

və “ای” (ایمان, عبرت, عزّت, اشلمه, استه, ایستر, ایچلمیش), ortasında “ی” ilə və ya işarəsiz (قامتن, بچاره, گلین, عزیز), sonunda “ی” ilə (قاشلاری, ایندی); dodaqlanan saitlər (o, ö, u, ü) söz əvvəlində “او” (اوچ, اوخشار, اولو, اولدو), ortasında bəzən “و” (مورادد, کچور, بوغولدی, کورمدیم), bəzən “ ُ” (zəmmə) , bəzən isə işarəsiz (پُنهان مُلا, دشمن) , sonunda “و” və “ی” (ظلمی , قورخو) ilə gösərilir və s.

Molla Cümə şeirlərinin orfoqrafiyası da XIX əsr Azərbaycan yazı dilinin spesifik xüsusiyyətlərini əks etdirir. Lakin bəzi hallarda vahid normalara riayət olunmadığını, eyni sözün bir neçə variantda yazıldığını görürük. Məsələn: یاناق [yanaq] – یاناخ [yanax], چوغ [çoğ] – چوق [çoq], قرا [qəra] – قارا [qara] və s.

Şairin əsərlərində rastlaşdığımız orfoqrafik fərq və hadisələrdən digərlərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

ف – (f) – پ (p) əvəzlənməsi: فیشمان (pişman), فنهان (pünhan);

د – (d) – ت (t) əvəzlənməsi: یدسون (gedsün), دورت (dört), دیفیل (difil).

Şairin əsərlərinin təhlili zamanı müəyyən edilmişdir ki, məhz XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan dilinin qrafik-orfoqrafik xüsusiyyətlərinin tam formalaşmaması səbəbindən bir çox sözlər dialektdə yazılmışdır ki, bu da yazılışda çoxvariantlılığa gətirmişdir.

Əsərlərindən də göründüyü kimi Molla Cümə heç vaxt mövcud hakimiyyəti və vəzifəli şəxsləri tərifləməmiş, heç bir dövlət vəzifəsində işləməmiş, dərviş kimi həyat sürməyə üstünlük vermişdir. Molla Cümə vətənpərvər şair olmuş, yadellilərin Şəki torpaqlarında məskunlaşmasına qarşı çıxmışdır. Bir sıra tədqiqatçılar haqlı olaraq Molla Cüməni **“**istiqlal şairi” adlandırmışlar.

İkinci fəslin “**Molla Cümə əsərlərinin ərəb əlifbası ilə köçürülmüş əlyazmalarının müqayisəli-tekstoloji xüsusiyyətləri”** adlanan 2-ci paraqrafında Molla Cümənin mətbu və yeni əldə edilmiş əlyazma nüsxələri də daxil olmaqla qeyri-mətbu əsərləri tədqiqata cəlb edilmişdir. Molla Cümə əsərlərinin əlyazma nüsxələrinin müqayisəli-tekstoloji tədqiqi məqsədi ilə ilk öncə əldə olan bütün əlyazma nüsxələri latın əlifbasına çevrilmiş, əsərlərin janrı, misra və sətirlərin sayı, ümumi sayı müəyyən edilərək hər biri

25 səhifə olmaqla dissertasiya işinə iki cədvəl şəklində əlavə edilmişdir.

Bu təhlil zamanı Molla Cümə əsərlərinin əlyazma nüsxələri ilə nəşr edilmiş variantlar arasında fərqlərin olduğunu görürük. Bu fərqlərin bir neçə səbəbi olduğunu düşünürük. Əvvəla, müxtəlif məclislərdə öz əsərlərini ifa edən ustad aşıq şeirlərini bədahətən oxuyarkən fərqli variantlar meydana çıxa bilər ki, bu da əlyazmada əksini tapa bilər. İkincisi, şeirləri köçürənlər də nələrisə təhrif edə və ya artıra bilərlər. Bu klassik ədəbiyyat nümunələrinin mətnlərində tez-tez müşahidə olunan hallardır. Və nəhayət, Hümmət Əlizadə, Paşa Əfəndiyev, Mövlud Yarəhmədov kimi tədqiqatçılar Molla Cümə əsərlərini nəşr etdirərkən təhriflərə yol verə bilərlər.

Molla Cümənin fərqli mənbələrdəki əsərlərində həcm baxımından da müxtəliflik vardır. Məsələn, şairin *"Aman"* başlıqlı gəraylısı ən son əldə edilən əlyazmada (dəftər) 9 bənd, 36 misradan, Əlyazmalar İnstitundakı nüsxədə 5 bənd, 20 misradan, Paşa Əfəndiyev və Şərif İdrisovun nəşrində 4 bənd, 16 misradan ibarətdir. Şairin *"Gəl insafa"* gəraylısı da dəftərdə 6 bənd, 24 misra, digər mənbələrdə 5 bənd, 20 misra, *"Var imiş" şeiri* dəftərlərdə 5 bənd, 25 misra, digər mənbələrdə 5 bənd, 20 misra, *"Əfəndim"* dəftərdə 5 bənd, 20 misra, Əlyazmalar İnstitunda olan nüsxədə 7 bənd, 28 misra, Paşa Əfəndiyevdə 5 bənd, 20 misra, Paşa Əfəndiyev və Şərif İdrisov nəşrində 7 bənd, 28 misra, *"Yaxın gəl" d*əftərlərdə 5 bənd, 20 misra, Əlyazmalar İnstitunda olan nüsxədə 3 bənd, 12 misra, *"Gəlmişdi"* şeiri dəftərdə 3 bənd, 12 misra, digər mənbələrdə 5 bənd, 20 misra həcmindədir və s.

Hesab edirik ki, Molla Cümə əsərlərinin əlyazma variantları ilə mətbu variantları tekstoloji cəhətdən müqayisə etdikdə istər ayrı-ayrı söz və ifadələrdə, istərsə də həcmdə fərqlər özünü yetərincə göstərməkdədir. Bunlar şairin əsərlərinin gələcək nəşrlərində nəzərə alınmalıdır.

Dissertasiyanın üçüncü fəsli **"Molla Cümə əsərlərinin gürcü əlifbası ilə köçürülmüş əlyazmalarının tekstoloji tədqiqi"** adlanır və iki paraqrafdan ibarətdir.

Üçüncü fəslin **"Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı"** adlanan birinci paraqrafda göstərilir ki, milli

folklorumuzun zəngin və çoxşaxəli bir qolu da Gürcüstanda yaranmış, inkişaf etdirilmiş və təbliğ edilmişdir. Azərbaycan-gürcü mədəni əlaqələrinin inkişafında mühüm amillərdən biri də bir sıra Azərbaycan ziyalılarının Qori müəllimlər seminariyasında dünyəvi təhsil alması, Gürcüstanda fəaliyyəti, gürcü cəmiyyətinə adaptasiyası olmuşdur.

Azərbaycan - gürcü ədəbi əlaqələrinin inkişaf edib formalaşmasında dövrünün və yaşadığı regionun çox tanınmış ustad aşıqlardan biri olan Molla Cümənin özünəməxsus rolu olmuşdur. İki dost xalqın tarixi birliyini, adət-ənənəsini, milli-mənəvi dəyərlərini, zəngin mədəni irsini yaxşı bilən aşıq Molla Cümə sazının və sözünün gücü ilə bu əlaqələrə böyük töhfə vermişdir.

Aşıq Molla Cümənin Gürcüstanın Kaxeti, Laqadexi bölgələrində məclislərdə iştirakı xüsusi önəm daşımışdır. Azərbaycanın şimal-qərb və Gürcüstanın şimal-şərq bölgələrindən olan gürcü aşıqlardan Konstantin Muradxanaşvili, Zakar (Zaxariyya Qvaramadze), Aşıq Müşkül (Zaxariyya Melidze), Aşıq Ruhani (Losab Beridze), Aşıq Qaragöz (Niko Beridze), Aşıq Şivxa (Luka Beridze), Dimitri Muradxanaşvili, Allahverdi Muradxanaşvili, Bəsaryon Kuzibaşvili, Solomon Poladaşvili, Vaxtan Kuzibaşvili, Rəcəb İnsaridze və başqaları Molla Cümə ilə həm birlikdə məclislər aparmış, həm də ustad aşıqdan dərs almışlar.[33]

Molla Cümənin şeirlərinin gürcü əlifbası ilə köçürülməsi əsərlərinin gürcüdilli əhali arasında geniş yayıldığının, onların bu auditoriyanın el şənliklərində, toylarda ifa edildiyinin göstəricisidir. Şairin *"Cəlali Məhəmməd və Tavat xanımın nağılı"* dastanı Azərbaycan və gürcü xalqlarının mehriban qonşuluğunun, səmimi dostluğunun bariz nümunəsi kimi də diqqəti cəlb edir. O, bununla Azərbaycan türkcəsinin bölgədə yaşayan digər xalqlar arasında yayılmasında vacib rol oynamışdır.

---

[33] Bəkirov, N.K. Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı/N.K. Bəkirov. -Bakı:Nafta Press, -2018. -226 s.; Bəkirov, N.K. Molla Cümə əsərlərinin gürcü əlifbası ilə köçürülmüş əlyazma nüsxəsinin orijinal nüsxəsinin ortaya çıxarılması barədə// -Bakı: Filologiya məsələləri. – 2019. №8. - s.250-264.

Qeyd edək ki, ekspedisiya zamanı əldə edilən əlyazmalardan biri də Molla Cümənin gürcü qrafikası ilə üzü köçürülmüş 38 əsərinin yer aldığı 12 vərəqli dəftərdir. Dəftərdəki əsərlər təhlil edildikdən sonra AMEA Əlyazmalar İnstitutuna təhvil verilmiş, FR/1648 şifri ilə qeydiyyata alınmışdır.

Dissertasiyanın üçüncü fəsilində məhz bu əlyazma dəftərinin tədqiqi və təhlili əksini tapmışdır.

Molla Cümənin əsərlərinin gürcü əlifbasıyla köçürüldüyü dəftərdən görürük ki, şair bəzən tədbirlərdə Azərbaycanın Şimal-Qərb və Aran-Şirvan bölgəsidən olan aşıqların şeirlərinin də digər xalqlar arasında yayılması və təbliğinə fikir vermişdir. O, bununla Azərbaycan türkcəsinin bölgədə yaşayan digər xalqlar arasında yayılmasında vacib rol oynamışdır.

XIX əsrin sonları-XX əsrin əvvəllərində xalqımızın ən ağır dönəmində, Çar Rusiyasının təsiri altında Qafqazda ruslaşma siyasəti aparılan bir dövrdə Molla Cümənin Azərbaycanın qərb istiqamətində məclislərdə və əsərləri vasitəsilə müsəlmançılığı, xüsusilə gürcü dilli əhali arasında yayması təqdirəlayiqdir.

Üçüncü fəslin ikinci paraqrafı **“Molla Cümənin gürcü əlifbası ilə köçürülmüş əsərlərinin paleoqrafik və tekstoloji xüsusiyyətləri”** adlanır. Aşıq poeziyasının ənənələrini ləyaqətlə davam etdirən Molla Cümənin yaradıcılığı XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutmaqdadır. Onun xalqımız, mədəniyyətimiz qarşısında ən böyük xidmətlərindən biri ölkəmizin, Cənubi Qafqazın çar Rusiyası tərəfindən işğalı dövründə, bölgədə dilimizin nüfuz dairəsinin sıxışdırıldığı zamanlarda həmvətənlərimiz və qonşu xalqlar arasında poeziyamızı, Azərbaycan türkcəsini yorulmadan təbliğ etməsi olmuşdur. Son zamanlarda aşkar edilmiş Molla Cümə şeirlərinin gürcü əlifbası ilə köçürüldüyü dəftər əyani surətdə göstərir ki, şairin bu sahədə fəaliyyəti uğurlu olmuşdur.

Molla Cümə yaradıcılığı boyu gürcü aşıqlara da müəllimlik etmiş, onlara öz şeirləri ilə bərabər Azərbaycanın digər aşıqlarının şeirlərini də öyrətmiş, həm Gürcüstanın şərqində, həm də ölkəmizin şimal-qərbində məktəb yaratmışdır.

Molla Cümənin şagirdlərindən biri də Konstantin Muradxanaşvili idi. O, eyni zamanda aşığın məclislərdə söylədiyi şeirləri gürcü əlifbasında yazmışdır. Bu əlyazmalarda bəzi yazı xətalarına da rast gəlinir. Məsələn: Şairin "Miskin" şeirinə nəzər yetirsək burda da eyni xətaları aydınca görmək olar.

Əlyazmada:

დერვიუავსუნხიდექილაენმან
Derviş avsunçi deqi-laen man[34]

Molla Cümə isə bu misranı belə yazmışdır:

Miskin dərviş ovsunçu deyiləm mən[35]

Əgər bu misraya diqqət etsək görərik ki, Konstantin Muradxanaşvili şeiri köçürərkən *"miskin"* sözünü ümumiyyətlə yazmamışdır. *"დერვიუ"* - *"Dərviş"* sözündə *"ə"* hərfini *"e"* hərfi ilə əvəz edərək sözü *"derviş"* kimi yazmışdır. *"ავსუნხი"* – "*avsunçi*" sözündə göründüyü kimi, sözün əvvəlində "o" əvəzinə "a", sözün sonunda "u" əvəzinə "i" yazılmışdır. Burada "ovsunçu" sözünün *"avsunçi"* kimi yanlış yazılıb. Bu misra *"deyiləm"* sözünü aşıq Konstantin Muradxanaşvili *"დექილაენ-deqilaen"* kimi yazılmışdır. İfaçı aşıq Konstantin Molla Cümənin "mən" sözünü gürcü əlifbası ilə "*მან -man"* kimi yazmışdır. Yəqin ki, K.Muradxanaşvili bu sözü məclilərdə də "mən" sözünü *"man"* kimi ifa etmişdir və s.

Şairin gürcü əlifbasında köçürülmüş digər şeirlərində də bənzər nöqsanlara rast gəlinir. Bunun da səbəbini gürcü danışıq dilinin və əlifbasının özünəməxsusluğunda görürük.

Molla Cümə əsərlərinin tekstoloji xüsusiyyətlərini araşdırarkən məlum olur ki, gürcü əlifbası Azərbaycan-türk mətninin

---

[34] Muradxanaşvili, K. Molla Cümənin əsərləri / AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. FR-1648, s.17

[35] Əfəndiyev, P. Molla Cümə. Əsərləri / P.Əfəndiyev. - Bakı: Şərq-Qərb, - 2006. - s.95

fonetikasını tam mənası ilə əks etdirə bilmir. Köçürülmüş Azərbaycan poetik mətnini tam mənası ilə başa düşmək üçün həm də müəyyən dərəcədə kartveloloq *(gürcüşünas)* olmaq lazım gəlir.

Gürcüstanın cənub-qərbində və şimal-şərqində yaşayan əhali (Borçalı), türk dilində, öz ləhcəsində, aşıq tərzində şeir və havaları qoruyub saxlamaqdadır. Mövzunu araşdıran alim-folklorşünaslar bunun şərqdən gəldiyini etiraf edirlər.

Molla Cümənin "Yerisin" başlıqlı qoşmasının çap olunmuş variantı ilə gürcü əlifbası ilə köçürülmüş variantı müqayisə edildikdə çox ciddi təhriflərlə rastlaşırıq.

Məsələn, Azərbaycan əlifbasıyla çap olunmuş variantda 1-ci bəndin ilk iki misrası belədir:

İsmi Pünhan, könlüm vərəm bağladı,
Bir ixtilat eylə, dillər yerisin.

Əlyazmada (38-ci şeir):

İsmin Pünhan, könlüm irin bağladı,
Bir ixtilat etdilər yarısı .

Gürcü variantında "vərəm" sözünün "irin" kimi işlədilməsi göstərir ki, şeir müxtəlif variantlarda ifa olunub. Ola bilsin ki, Molla Cümə özü də əsərlərini ifa edərkən bəzi sözləri dəyişdirmişdir. Şairin öz şeirinin bəzi sözlərini ifa edərkən də dəyişdirməsi mümkündür.

Paşa Əfəndiyevin "Molla Cümə. Əsərləri" kitabında:

Beyqəfildən xar düşməsin arayə,
Bülbülün dəstində güllər yerisin.

Əlyazmada:

Nəgahıyla xərc düşməsin araya,

Bülbül bilər, dastan qurar yarısı. [36]

Molla Cümənin şeirlərinin gürcü əlifbasıyla yazılışından görünür ki, onların bir çoxu gürcü əlifbası ilə düzgün köçürülməyib.

P.Əfəndiyevin nəşrində qardaş həsrətindən bəhs olunur ki, gürcü əlifbası ilə köçürülən variantda bu yoxdur. Əlyazmanın üçüncü misrasında şair "Yevlaxdan" gəldiyindən, P.Əfəndiyevin çap etdiyi variantda isə "yaylaxdan" gəldiyindən danışır. Fikrimizcə *"yaylax"* sözü təhrif edilərək *"Yevlax"* formasına düşməyib. Sadəcə olaraq şair müxtəlif məclislərdə özü ifada dəyişiklilər edib.

Molla Cümənin bəhs olunan əlyazmasından görürük ki, şair bəzən tədbirlərdə Azərbaycanın Şimal-Qərb və Aran-Şirvan bölgəsidən olan aşıqların şeirlərinin də digər xalqlar arasında yayılması və təbliğinə diqqət etmişdir. O, bununla Azərbaycan türkcəsinin bölgədə yaşayan digər xalqlar arasında yayılmasında vacib rol oynamışdır.

Molla Cümə öz xalqını sonsuz məhəbbətlə sevdiyi kimi bütün dünya xalqlarına, bəşəriyyətə məhəbbətlə yanaşan sənətkar olmuşdur.

Molla Cümənin Azərbaycanın şimal-qərb bölgəsindəki fəaliyyəti gürcü aşıq məktəbinin inkişafına təsirsiz ötüşməmişdir;

Molla Cümə öz yaradıcılığında gürcü aşıqları ilə əlaqələrə yer ayırmaqla bu iki xalqın yaxınlaşmasında və birgə ədəbi-folklor nümunələrinin meydana gəlməsində mühüm rol oynamışdır.

Molla Cümə öz xalqını sonsuz məhəbbətlə sevdiyi kimi bütün dünya xalqlarına, bəşəriyyətə məhəbbətlə yanaşan sənətkar olmuşdur.

Dissertasiya işinin **"Nəticə"** hissəsində əsas müddəalar qruplaşdırılmış, tədqiqatın yekunları bəndlər şəklində göstərilmiş, öyrənilən hadisələrin müasir dövrlə əlaqəsi müəyyənləşdirilmişdir:

- Molla Cümə 1920-ci ildə erməni-daşnakları tərəfindən qəddarcasına qətlə yetirilmiş, həyat yoldaşı Zöhrə xanım da bu zaman evində güllələnmişdir. Həmin vaxt ailədən yalnız Molla Cümənin 14 yaşlı qızı Reyhan xanım qonşuların köməyi ilə baba yurduna, yəni Şəki rayonu "Baş Layisqi" kəndinə qaçırılaraq sağ qala bilmişdir.

- Molla Cümənin yaradıcılığı Şəki ədəbi mühitinə yeni nəfəs gətirmiş, Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir. O, əsərlərini özü

[36]Molla Cümə. Əsərləri /Nəşrə hazırlayan: Əfəndiyev, P. - Bakı: Şərq-Qərb, - 2006. – s. 230.

yazıya alan savadlı aşıq kimi də ədəbiyyat tariximizə düşmüşdür. Molla Cümənin ədəbi irsi haqlı olaraq Azərbaycan aşıq poeziyasının incilərindən sayılır. Molla Cümə XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında vətənpərvər poeziyanın nümayəndələrindən olmuşdur. O, əksər poetik janrlarda mükəmməl əsərlər yaradan görkəmli şairlərimizdəndir. Molla Cümə "İsmi Pünhan"ı şeirlərinin qəhrəmanına çevirərək onun simasında bədii obraz yaratmış, bu obrazı butasına çevirmişdir;

- Molla Cümə yaradıcılığında bir neçə əsas istiqamətin birləşdiyini görürük: klassik poeziya ənənələrinin davamı; şifahi xalq ədəbiyyatından bəhrələnmə, xalqın adət və ənənələrinin, müsbət xüsusiyyətlərinin tərənnümü; xalqda zülmə, istibdada, müstəmləkə rejiminə qarşı dözülməzlik, mübarizlik ruhunun təbliğ etmişdir;

- Molla Cümənin həyatı ilə bağlı aparılan araşdırmalara əsasən doğum tarixinin 1859-cu il olduğunu iddia edirik;

- Molla Cümə yaradıcılığı və əsərlərinin əlyazma nüsxələrinin müqayisəli-tekstoloji tədqiqi ilə bağlı tərəfimizdən aparılan tədqiqat zamanı ilk dəfə olaraq Molla Cümə əsərləri bir araya toplanaraq 12, əlyazmalarla birlikdə 14 mənbədə olduğu müəyyən edilmişdir;

- Bölgələrə aparılan ekspedisiyalar zamanı şairin əsərlərinin ərəb qrafikası ilə üzü köşürülmüş 4, gürcü əlifbası ilə köşürülmüş 1 əlyazma nüsxəsi əldə edilmişdir. Bundan başqa, şairin əsərlərinin müqayisəli-tekstoloji təhlili nəticəsində Molla Cümə əsərlərinin ümumi sayının 1145 olduğu müəyyən edilmişdir. Onlardan doqquzu dastandır. Qeyd edək ki, şairin qeyri-mətbu 295 şeir və 5 dastanı aparılan tədqiqatlar zamanı aşkar edilmişdir;

- Tərəfimizdən aşkar edilmiş dörd əlyazma dəftər təhlil edilərək, orada şairin 882 şeirinin olduğu müəyyən edilmiş, sonra isə Əlyazmalar İnstitutuna təhvil verilmiş, D 1020/1, D 1020/2, D 1020/3, D 1020/4 şifri ilə qeydiyyata alınmışdır;

- XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan dilinin qrafik-orfoqrafik xüsusiyyətlərinin tam formalaşmaması səbəbdən bir çox sözlər dialektdə yazılmışdır ki, bu da yazılışda çox-variantlılığa gətirmişdir;

- Molla Cümə əsərlərində heç vaxt mövcud hakimiyyəti və vəzifəli şəxsləri tərifləməmiş, heç bir dövlət vəzifəsində işləməmiş,

əsərlərindən də göründüyü kimi dərviş kimi həyat sürməyə üstünlük vermişdir. Bir sıra tədqiqatçılar haqlı olaraq Molla Cüməni "istiqlal şairi" adlandırmışlar;

- Hesab edirik ki, Molla Cümə əsərlərinin əlyazma variantları ilə mətbu variantları tekstoloji cəhətdən müqayisə etdikdə istər ayrı-ayrı söz və ifadələrdə, istərsə də həcmdə fərqlər özünü aydınca göstərməkdədir. Bütün bunlar şairin əsərlərinin gələcək nəşrlərində nəzərə alınmalıdır. Hər dəfə tədqiqatçılar tərəfindən şairin yeni-yeni əsərlərinin ortaya çıxarılması göstərir ki, şairin ədəbi irsi hələ də tam toplanıb nəşr edilməmişdir. Bu sahədə yeni axtarışların, tədqiqatların aparılmasına ehtiyac vardır;

- Molla Cümənin bu dissetasiya işində müqayisəli-tekstoloji tədqiqata cəlb edilmiş əlyazmaları, eləcə də mətbu əsərləri əsasında gələcəkdə onun əsərlərinin elmi-tənqidi mətnini tərtib etmək olar ki, bu mətn şairin əsərlərinin yeni nəşrlərinin daha mükəmməl şəkildə ortaya çıxmasına səbəb ola bilər. Haqqında danışılan elmi-tənqidi mətndə şairin əsərlərinin sonradan əldə edilmiş əlyazma nüsxələrindən də istifadə edilməsi mümkündür;

- Molla Cümə öz xalqını sonsuz məhəbbətlə sevdiyi kimi bütün dünya xalqlarına, bəşəriyyətə məhəbbətlə yanaşan sənətkar olmuşdur. Molla Cümənin Azərbaycanın şimal-qərb bölgəsində və gürcü aşıq məktəbinin formalaşmasına təsirini nəzərdən keçirərkən belə qənaətə gəlirik: Molla Cümənin əsərlərinin vaxtı ilə gürcü əlifbası ilə köçürülərək yazılması onun multikultural dəyərlərin təbliği yaşadığı bölgədəki xalqlarla dostluğun möhkəmləndirilməsi sahəsindəki fəaliyyəti ilə bağlıdır; Molla Cümənin Azərbaycanın şimal-qərb bölgəsindəki fəaliyyəti gürcü aşıq məktəbinin inkişafına təsirsiz ötüşməmişdir; Azərbaycanla Gürcüstanın dostluq münasibətlərinin, ədəbi əlaqələrinin inkişafında böyük xidmətləri olmuş şəxsiyyətlərdən biri də, heç şübhəsiz ki, Aşıq Molla Cümə olmuşdur. Molla Cümə öz yaradıcılığında gürcü aşıqları ilə əlaqələrə yer ayırmaqla bu iki xalqın yaxınlaşmasında və birgə ədəbi-folklor nümunələrinin meydana gəlməsində mühüm rol oynamışdır.

DİSSERTASİYA İŞİNİN MÖVZUSUNA DAİR DƏRC OLUNMUŞ ELMİ ƏSƏRLƏRİN SİYAHISI:

1. Bəkirov, N.K. Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı (monoqrafiya) / N.K. Bəkirov. – Bakı: Nafta Press, – 2018. – 226 s.
2. Molla Cümənin tərcümeyi-halı barədə // – Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. №4 (112), – s. 99-106.
3. Molla Cümə yaradıcılığının Azərbaycanın şimal-qərb və gürcü aşıq məktəbinin inkişafında rolu // – Bakı: Əlyazmalar yanmır. – 2019. №2 (9), iyul-dekabr. –s. 227-234.
4. Molla Cümə əsərlərinin gürcü əlifbası ilə köçürülmüş əlyazma nüsxəsinin orijinal variantının ortaya çıxarılması barədə // – Bakı: Filologiya məsələləri, – 2019. № 8, – s. 250-257.
5. Molla Cümənin "Simovar" rədifli qeyri-mətbu müxəmməsi // – Bakı: Filologiya məsələləri. – 2019. №12, – s. 243-248.
6. Molla Cümənin yeni aşkar edilmiş şeirlər toplusu-bloknot barədə // – Bakı: Filologiya məsələləri. – 2019. № 16, – s. 217-223.
7. Molla Cümənin dastanları // "Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünüdərkdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri" mövzusunda beynəlxalq elmi konfrans. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, – Bakı: – 23-25 dekabr, – 2020. – s.73-75.
8. Molla Cümənin ədəbi irsi, əsərlərinin nəşri və tədqiq tarixi // – Bakı: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Elmi əsərlər. – 2020. №1 (10), yanvar-iyun, – s. 55-60.
9. Molla Cümənin ədəbi irsi // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda V beynəlxalq elmi konfans. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. – Bakı: – 30 noyabr, – 2020. – s.120-123
10. Molla Cümənin əsərləri toplanmış dörd əlyazma dəftər barədə // – Bakı: Əlyazmalar yanmır. – 2020. №1(10), yanvar-iyun, – s. 29-34.
11. Molla Cümənin şeirləri toplanmış üç dəftər barədə // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi nəzəri jurnal. – 2020. № 1(113). – s.193-196.

12. Molla Cümənin Əsərləri toplanmış dörd əlyazma dəftər barədə // AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Şərq dünyası 100 il əvvəl və bu gün. Şərq xalqlarının I qurultayı. –Bakı: – 2020. – s. 30-32.
13. Образцы Азербайджанского фольклора в старых рукописях // The role of oriental languages in intercultural communication. – Toshkent, – 20-21 november, - 2020. – стр. 611-616.
14. About Molla Juma`s literary heritage, published and non-published works (on the base of documents and works) // - Украина: Вчені записки. – 2023. №6, – стр. 156-161

Dissertasiyanın müdafiəsi 02 aprel 2024-cü il tarixində saat 14^{00} Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh. İstiqlaliyyət küçəsi, 53. AZ 1001. Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyi

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 mart 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.02.2024

Kağızın formatı:A5

Həcm: 36 793

Tiraj: 100